## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

1. **Ceyran Mahmudova** - *sənətşünaslıq elmləri doktoru, professor, ADMİU-nun rektoru*
2. **Gülşən Əliyeva-Kəngərli** - *filologiya elmləri doktoru, professor, ADMİU-nun Beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektoru*
3. **Sədaqət Əliyeva** - *kulturologiya üzrə fəlsəfə doktoru, dosent, ADMİU-nun Elm və yaradıcıq işləri üzrə prorektoru*
4. **Gülşən Qafarova** - *sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, məsul katib*

ADMİU

**Konfransın məqsədi:**

Azərbaycan mədəniyyətinin təbliğini daim diqqət mərkəzində saxlayan Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə beynəlxalq səviyyəli irihəcmli, səmərəli layihələr həyata keçirilib. Ulu öndər Azərbaycan mədəniyyətinin inkişafında yeni bir mərhələnin əsasını qoyaraq ədəbiyyatımızın, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin beynəlxalq aləmdə tanınmasına nail oldu. Konfransın məqsədi Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin təməli olan mədəniyyət konsepsiyasının tədqiqi və təbliğidir.

**Konfransın istiqamətləri:**

- Heydər Əliyev siyasətində milli-mənəvi dəyərlər;
- Azərbaycan mədəniyyəti və incəsənəti Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının ideya-fəlsəfi əsası kimi;
- Azərbaycanın türk dünyasına inteqrasiyasında H. Əliyevin rolu;
- H. Əliyev irsi və müasir Azərbaycan gəncliyi;
- H. Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası;
- H. Əliyev və Azərbaycan memarlığı;
- Ədəbiyyat Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin təməli kimi;
- H.Əliyevin nəzəri - siyasi sistemində kulturoloji istiqamətlər;
- Dövlətçilik və idarəetmə konsepsiyasında mədəniyyət fenomeni;
- H.Əliyev və Azərbaycan musiqi mədəniyyəti;
- H.Əliyev kino sənəti haqqında;

Konfransda ali təhsil və elmi-tədqiqat müəssisələrini təmsil edən professor-müəllim heyəti, doktorant, dissertant və elmi işçilər iştirak edə bilərlər.

Konfrans materialları toplu şəklində çap olunacaqdır.

**Məruzə və tezislərin quruluşu, tərtibi qaydaları:**

- tezisdə müəllifin adı, atasının adı, soyadı, elmi dərəcəsi və ya elmi adı, iş yeri, elektron ünvanı, əlaqə nömrəsi göstərilməlidir;

- tezisin mətni Azərbaycan, türk, ingilis və rus dillərində verilə bilər;

- mətn A4 formatında (210 x 297 mm), Microsoft Word proqramında Times New Roman şriftilə yığılır (şriftin ölçüsü -12; sətirlərarası interval -1,5; məsafələr – hər tərəfdən 2 sm);

- tezisin mətni 3-4 səhifə həcmində olmalıdır;

- mətndən əvvəl yuxarıdan solda UOT (rubrikatora uyğun Universal Onluq Təsnifatı indeksləri) indeksi (adı şriflə), növbəti sətirlərdə müəllifin soyadı, adı və atasının adı (tam açıq şəkildə), elmi dərəcəsi, elmi adı, işlədiyi və ya təhsil aldığı müəssisənin adı (kursiv şriftlərlə), elektron ünvan və əlaqə telefonu yazılmalıdır; növbəti sətirdə mərkəzdə tezisin adı (qalın şriftlərlə),

- ədəbiyyat siyahısı mətnin sonunda əlifba sırası ilə və AAK-ın tələblərinə uyğun göstərilir (istinad olunan ədəbiyyatın nömrəsi mətnin içərisində göstərilir:).

Tezisin konfrans materiallarına daxil edilməsi Təşkilat Komitəsinin müvafiq qərarı ilə müəyyən ediləcəkdir. Zərurət yarandıqda Təşkilat Komitəsinin irad və qeydləri əsasında müəllif tərəfindən tezis üzrərində düzəliş edilərək vaxtında göndərilmədikdə tezis konfrans materiallarına daxil edilməyəcəkdir.

Konfransa təqdim edilmiş tezislər geri qaytarılmır.

Bir nəfərin müəllifliyi və ya həmmüəllifliyi ilə yalnız bir məqalə qəbul edilir.

Tezislər **30 mart 2023-cü il** tarixindən gec olmayaraq elektron variantda aşağıdakı ünvana göndərilməlidir:

# İŞTİRAKÇININ ƏRİZƏSİ

| | |
|---|---|
| Soyad, ad, atasınn adı (tam) | |
| Elmi dərəcə | |
| Təşkilat | |
| Vəzifə | |
| E-mail | |
| Telefon nömrəsi (ölkə kodu ilə) | |
| Ev ünvanı (poçt indeksi ilə) | |
| Ölkə, şəhər | |
| Məruzənin adı | |
| Açar sözlər | |
| Tezis | |

**Əlaqə:**

**Ünvan: ADMİU, İnşaatçılar pr., 39**

**Telefon:** (+99 412) 599-00-54 (daxili 130)

**Elektron poçt ünvanı:** konfrans2023@admiu.edu.az

**İnternet ünvan:** http://admiu.edu.az/